**Əşyalar Danışsaydı**
**Baş Məqalə - Betti Bleyer**

Mənbə: Azerbaijan İnternational jurnalı - Aİ 5.2 (Yay 1997)
© 2003. Azerbaijan İnternational

Bakıda bu günlər böyük dəyişikliklər baş verir. Şəhərin hər tərəfində tikinti işləri gedir. Yeni mağazalar və idarələr açılır. Beynəlxalq ictimaiyyət bu məkanı və onun insanlarını kəşf etməyə başlayır. İndi artıq həftənin bütün günləri Bakıdan əsas beynəlxalq şəhərlərə və geriyə uçuşlar vardır. "Çoxdan qalanlar" (Azərbaycanda 4 il və ya daha çox yaşayanlar) əvvəllər hər hansı bir restorana daxil olduqda orada olan hər bir xarici vətəndaşı tanıya bildikləri vaxtları hələ də xatırlayır. Artıq indi vaxt o vaxt deyil.

Hətta paltarlar və rənglər də dəyişib. Qadın paltarları daha da qısalmış, rənglər isə daha əlvan olmuşdur. Gənclər gələcəkləri barədə çox optimistdirlər. "Qış ayları artıq boz və tutqun deyil," bir "çoxdan qalan" qeyd edir.

Bu nömrəmizdə biz Azərbaycanda baş verən dəyişiklikləri xarakterizə edən bəzi obyektləri seçmişik.

**Azərbaycan Klassik Musiqisi**
Musiqi, xüsusilə də şərq və qərb üslublarının, melodiyalarının və orkestrinin zəngin və ekzotik qarışığı olan Azərbaycan musiqisi beynəlmiləl bir dil hesab olunur. Təəssüf ki, Azərbaycan musiqisi özünün məharət və keyfiyyətinə baxmayaraq dünyada hələ az tanınır. Sovet dövründə əsas etibarilə rus əsərləri və bəstəkarları diqqət mərkəzində idi. Qərarlar Moskvadan diktə edilir və azərbaycanlılar da əyalət respublikalarda yaşayan bir çox digər istedadlı ifaçılar kimi kölgədə qalırdılar.

Ümid edirik ki, bu vəziyyət tezliklə dəyişəcək. Azərbaycanlılar musiqiləri ilə tanınmağa layiqdirlər. Buna görə də biz Amoco şirkəti ilə birlikdə 6 diskdən ibarət "Azərbaycan Klassik Musiqisi" albomunu çıxarmağımıza görə şərəf hissi duyuruq. Bu Azərbaycan üçün tarixi bir nailiyyətdir: Azərbaycan bəstəkarlarının əsərlərini təqdim edən, Azərbaycan musiqiçiləri tərəfindən ifa edilən və Azərbaycanda diqital üsul ilə yazılmış ilk 20-ci əsr klassik əsərlər antologiyası. Topluya 6 disk daxildir: Simfoniya, Balet, Konsert, Piano,

Opera və Kamera musiqisi. Bu disklərdə 15 müxtəlif Azərbaycan bəstəkarının 74 əsəri toplanmışdır.

1994-cü ilin yazında jurnalımız "İncəsənətdə Böhran" mövzusunu əhatə etmişdi. İqtisadi problemlər tərəfindən təzyiqə məruz qalan musiqi və incəsənət mübarizədə idi. Azərbaycanın bəzi ən yaxşı incəsənət xadimləri və ifaçıları öz karyeralarından əl çəkmək istəmədiklərindən digər ölkələrə köçüb getməli olmuşdular. Artıq bu meyl əks istiqamətdə dəyişir və klassik musiqi bir daha yenidən canlanır. Azərbaycanın Mədəniyyət Naziri Polad Bülbüloğlunun qeyd etdiyi kimi, "Bu bütün dünyaya musiqinin bu gün Azərbaycanda yaşadığını sübut edir."

## Əlifba

Bu keçid dövründə digər bir problemli məsələ əlifbadır. 1991-ci ildə Parlament latın əlifbasının təkmilləşmiş formasını qəbul etdi. Ümumiyyətlə desək yeni əlifbanın tətbiq edilməsi yenə də maliyyə problemləri nəticəsində yavaş getdi. Lakin bu yaz görünür, əlifba dəyişikliyinin dəstəklənməsi üçün yeni öhdəlik qəbul edilmişdir. Tamam Bayatlının yazdığı kimi, latın əlifbası yeni Azərbaycanın simvoluna çevrilmişdir. Nəyahət ki, yeni əlifba müəyyən edilmişdir və onun istiqaməti dəyişilməzdir.

## Sadəcə Uşaqlar Üçün

Bu nömrədən başlayaraq, "Sadəcə uşaqlar üçün" adlı yeni bölmə təqdim edirik. Uşaqlardan bizim <http://azer.com> saytını aşkar etdikdən sonra çoxlu sayda xahişlər almışıq. Bu yeni bölmənin fikrimizcə həmin gənc coğrafiyaçılar arasında mədəni anlaşmanı gücləndirəcəyini fikirləşdiyimiz mövzulara həsr etmək istərdik. Bu dəfə biz Azərbaycanlıların həm tarixi, həm də mədəni cəhətdən qırmızı rəngə olan vurğunluqlarını göstərən illüstrasiyalarla dolu "Qırmızı - rənglər danışsaydı" mövzusunu seçmişik.

## İkidilli Məlumat Bölməsi

Artıq üçüncü ildir ki, jurnala daxil etdiyimiz İkidilli Tədqiqat Məlumat Bölməsi beynəlxalq ictimaiyyətin Azərbaycanın gələcəyinə inam və ümidinin olmasını aydın göstərir. Şirkətlərin emblemləri və özləri bu günlər beynəlxalq ictimaiyyətin Bakıda güclü və geniş təmsil olunduqlarından xəbər verir. Bu inam Azərbaycanın iqtisadiyyatında özünü göstərir. Misal üçün, son 12 ayda keçmiş Sovet respublikalarının içərisində Azərbaycan daha az inflyasiyaya məruz qalmışdır. Hətta manatın dəyəri qalxmaqdadır.

Bu günlər Azərbaycanda çoxlu həcmdə müsbət enerji müşahidə olunur. Bunu hər addımbaşı hiss etmək olur və fikrimizcə bunu təsvir etmək üçün bir neçə nömrəni buna həsr etmək lazımdır.

---

Tərcümə: Ülviyyə Məmmədova
Yoxladı: Gülnar Aydəmirova
Redaktə etdi və veb üçün hazırladı: Aynurə Hüseynova